# Sonadək qoşa getdiyim tanışcan da olmadın...



Jalə İsmayıl

## AZADLIĞIN AĞRISI...

qandalları açılan kimi
biləklərini ovuşduran
məhbus tək
ürəyimi ovcumda
əzirəm
səndən sonra...
...azadlıq həmişə ağrıyla başlayır...

## YAŞAMAQ!

yaşamaq istəyirsən?
gözlərini yum,
uzat qabağa əllərini,
gülümsə...
barmaqlarının ucu
sən
hər addım atdıqca
bir addım geri çəkilən
xoşbəxtliyə
toxunana qədər
get...
...nəfəskəsicidi...

## FƏRHAD ÜÇÜN

"itirmək" ağır feldi
əgər qarşısında
itirməkdən qorxduğun
isim dayanıbsa...
bu isim hələ xüsusi isimdisə
bu xüsusi isim hələ bir insan adıdısa...

"insan" maraqlı isimdi
əgər ondan sonra
"sevmək"
"gülmək"
"ağlamaq"
felləri gəlirsə...
ondan əvvəl
"yaxşı"
"gözəl"
"böyük"
sifətləri görünürsə...

"qarabəniz"sə ən sevimli sifətdi
hər zaman sevdiyin,
sevəcəyin
birinə deyirlərsə...

...dənizlə dərdləşən,
heç bilirsən,
dalğalar da dənizin dərdidi?
ha itirir,
bitmir,
bitmir...

## ŞAHİDLƏR

Nizami
Xaqani
Füzuli
Hadi ...

onlar hamısı şahiddi ki,
bir qadın
inandırmaq,
bir kişi
inanmamaq üçün
əllərindən gələni etdilər...

hamısı şahiddi,
bu küçələrin hamısı...

## ELVİNƏ

kiminsə ölməsi
getməsi deyil ki
itməsi deyil
o qucaqlaya bilmirsən haaa doya-doya
ölməsi budu birinin...

indi sən bir ölü
mən bir ölü
o bir ölü
bu bir ölü
qol qalxmırsa, o da ölü...

...boynuna sarılaq dirinin, dostum...

## DE!

de ki, üşümə, yaxın gəl
de ki, baharın qız çağıdı
de ki, buradayam, gülümsə
gördüyün də xəzan deyil,
ən qədim sarı-qırmızı xalıdı...
de!
inanacam!

## YUXUYOZAN

yuxuda
göy rəngli,
qısaqol
kişi köynəyi görmüşəm,
ipdən asılı...
günün altında
qurumuşdu tamam,
təkcə yaxası islaqdı...
haradasan, ay yuxuyozan?

## SOYUQ VƏ QARANLIQ

bu soyuqda, qaranlıqda
küçələri tək gəzmək var
üzünü kəsən şaxtanın
üzünə arsız gülmək var
bu soyuqda, qaranlıqda
ağrıları kiritmək var
kirpiyinə qonan qarı
göz yaşında əritmək var
bu soyuqda, qaranlıqda
bezmək var şirin canından
içində dərd əzən kimi
palçığı bərk-bərk əzmək var

bu soyuqda, qaranlıqda
bu soyuq da, qaranlıq da
gözə girən qaranlıq da
olsa, bir az sevinmək var

bu soyuqda, qaranlıqda
xatırlamaq var tək onu
ikinizin mahnısını
zümzümə eləmək də var...

...bu soyuqda, qaranlıqda
rastlaşıb qəfil əcəllə
eşitmək var: "hara belə
bu soyuqda, qaranlıqda?"

## PAYIZ KİŞİ

bilirsən payızı
niyə hamısından çox istəyirəm?

çünki payız kişi oğlu kişidi!
bütün halıyla deyir ki,
məndən sonra qışdı,
qış!
yığışdır ümidləri ortalıqdan,
özün də yığış...

## DAĞ

Qobustan qayasıdı ürəyim?
ay vəhşi,
neçə min il sonra
oxuya bilməyəcəklər axı
çəkdiyin dağları...

bir az səliqəli ol...

## YAĞIŞCAN...

yuyub təmizlədi məni,
sevib əzizlədi məni,
hamıdan gizlədi məni,
bu yağışcan da olmadın

hər gecə qoynunu açan,
ağladım, boynumu qucan,
sevindim, havada uçan,
bu balışcan da olmadın

yarıymış bütöv bildiyim,
turş daddı şirin yediyim,
sonadək qoşa getdiyim,
bu tanışcan da olmadın...

